# AZƏRBAYCAN RESPUBLİKASININ
# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ

## ƏMR

№19020001834

Bakı şəhəri "09" yanvar 2019-cu il

**"20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.5.7-ci bəndini rəhbər tutaraq **əmr edirəm:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
2. Bu əmrin 1-ci bəndi ilə təsdiq olunmuş Tədbirlər Planında nəzərdə tutulan məsul şəxslər həmin tədbirlərin həyata keçirilməsini təmin etsinlər.
3. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsi (F.Talıbov) bu əmrin və ona əlavənin Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
4. Nazirliyin Aparatının Ümumi şöbəsinin müdiri L.Abdullayevaya tapşırılsın ki, bu əmrin surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Sahil Babayev**

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ
Ümumi şöbə

ƏSLİ İLƏ DÜZDÜR

Azərbaycan Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

---

**"20 Yanvar" faciəsinin iyirmi doqquzuncu ildönümünə həs olunmuş anım tədbirinin**

# PROQRAMI

*Cümə, 18 yanvar 2019*
*ƏƏSMN, iclas zalı (2-ci mərtəbə)*

| | |
|---|---|
| 11:00 | "20 Yanvar" faciəsi qurbanlarının əziz xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi |
| **Çıxışlar:** | |
| 11:00 – 11:10 | **Mətin Kərimli** - Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini |
| 11:10 – 11:20 | **Musa Urud** – millət vəkili, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü |
| 11:20 – 11:30 | **Sultan Əzimzadə** – Azərbaycan Respublikası "20 Yanvar" İctimai Birliyinin sədri |
| 11:30 – 11:40 | **Rafiq Səməndər** – yazıçı-publisist, "Şəhidlər" kitabının müəllifi |

**QEYD:** Tədbirdə nazirliyin rəhbər heyəti, əməkdaşları ilə yanaşı Nazirlik yanında İctimai şuranın bütün üzvlərinin iştirakı nəzərdə tutulmuşdur.